**KÖNÜL MƏMMƏDOVA**
**ADPU**
**Pedaqogika üzrə fəlsəfə doktoru, dosent**
**konul.1970@mail.ru**

# AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ ZƏNGİNLƏŞDİRİLMƏSİNDƏ İNTERAKTİV TƏLİM ÜSULLARINDAN İSTİFADƏ

**Açar sözlər**: Venn diaqramı, interaktiv telim, idrak fəaliyyəti.
**Ключевые слова:** диаграмма Венн, интерактивное обучение,восприимчивость.
**Key words:** Venn diagram, interactive training, cognitive activity.

Azərbaycan dili tədris prosesində böyük inteqrativ əhəmiyyətə malikdir. Gündən-günə şagirdin nitqində bütün elm sahələrinə aid sözlər toplanır. Bunlar quruca söz deyil, onların arxasında maddi qabığa malik olan anlayışlar durur. Hər bir söz ümumiləşdirilməklə təfəkkürün inkişafının güclü vasitəsi, onun silahı rolunu oynayır. İctimai hadisə olan dil vasitəsilə bütün fənləri, elmləri öyrənmək mümkün olur. Deməli, dil sadəcə ünsiyyət vasitəsi deyil, həm də güclü inteqrasiya vasitəsidir.Azərbaycan dili məktəbdə tədris olunan digər fənlərdən bir spesifik xüsusiyyətilə fərqlənir.

Belə ki, ana dili məktəbdə öyrənilən sadəcə bir fənn deyildir, başqa fənlər də əslində ana dili vasitəsilə öyrənilir. Burada şagirdlərin öyrənmək obyekti elə dilin özüdür. Şagirdlər ana dilini mükəmməl öyrənməyə nail olmaqla başqa fənlərin öyrənilməsində də çətinlik çəkmirlər. Axı şagirdlər bütün fənlər üzrə bilikləri də dil vasitəsilə ifadə etməli, dil vasitəsilə başa düşməlidirlər.Açıq şəkildə etiraf etməliyik ki, Azərbaycan dili fənni ibtidai siniflərdə baş fənn, mərkəzi fənn olmaqla yanaşı eyni zamanda başqa fənlərə daxil olan və onların nəticələrini özündə toplayan bir zəngin xəzinəni - ana dilini şagirdlərə sevdirməyi bacarmalıdır. Buna nail olmaq üçün ana dilinə-Azərbaycan dilinə məhəbbət yaratmaq üçün müəllim bir sıra vasitələrdən istifadə etməlidir. Bunun üçün müəllim Azərbaycan dili haqqında görkəmli şəxsiyyətlərin fikirlərini nümayiş etdirməli, Azərbaycan dilinin zənginliklərinə aid konkret faktlar gətirməli, bu dildə yazmış-yaratmış böyük sənatkarlarm dünya şöhrətindən danışmalı, dili sevdirmək üçün şəhərciklər və s. təşkil etməlidir. Elə etmək lazımdır ki, dili və onun qayda-qanunlarını öyrənmək şagird üçün ağır yükə çevrilməsin. Azərbaycan dili tədrisinin başlıca vəzifələrindən biri də şagirdlərdə dil hadisələrini doğru əks etdirən düzgün məfhumlar yaratmaqdır. Şagirdlər dil hadisələrini bilavasitə müşahidə etməklə onlar haqqında doğru təsəvvür və məfhumlar əldə etməlidirlər. Məfhumlar hissi təsəvvürlərlə əlaqədardır. Demək,

əşyanın mahiyyətini öyrənmək üçün duyğulardan nə qədər çox istifadə edilərsə, əşya haqqında bir o qədər ətraflı və doğru bilik əldə etmək olar.Azərbaycan dili fənninin əsaslarını geniş məfhumlar, yəni dil hadisələ¬rini, dilin qayda və qanunlarını özündə təcəssüm etdirən məfhumlar müəy¬yənləşdirir. Məsələn, «Sözün tərkibi» bəhsi geniş məfhumdur. Bu bəhs söz kökü, sözün şəkli, şəkillərin növləri, həmin növləri bir-birindən fərqləndirən xüsusiyyətlər və s. kimi məfhumları ümumiləşdirir, özündə birləşdirir. Müəllim dərs prosesində ənənəvi olaraq sual-cavab, çalışma və test tapşırığı vasitəsilə dərsi izah edir.Lakin interaktiv təlim üsullarından istifadə dərsin şagirdlər tərəfindən dərindən mənimsənilməsinə komək edir. Məsələn, müəllim Venn diaqramından istifadə edərək kök və şəkilçinin oxşar və fərqli cəhətlərini şagirdlərin iştirakı ilə müqayisə etdirir. Nitq hissələrinə aid məfhumlar da genişdir, məsələn, isim məfhumu ismin mənaca növləri, xüsusi və ümumi isimlər, isimlərin quruluşca növləri, mürəkkəb isimlərin orfoqrafiyası, isimlərin hallanması, mənsubiyyət şəkilləri, isimlərin cümlədə rolu və s. məsələləri əhatə edir. Bunu BİBÖ vasitəsilə daha aydın şəkildə şagirdlərə mənimsətmək mümkündür. Beləliklə, şagirdlər Azərbaycan dili dərslərində, ibtidai şəkildə də olsa, dil elminin əsaslarına müvafiq surətdə müəyyən məfhumlar əldə edirlər. Bu məfhumların çox hissəsi ayrı-ayrı dil hadisələrini, qrammatik qaydaları öyrənərkən, nəhayət, tam bir bölməni keçərkən ümumiləşdirilir və beləliklə, Azərbaycan dilinin tədrisi prosesində dilin qayda və qanunları haqqında şagirdlərdə məfhum yaradılır.Uşaqlarda qrammatik məfhumların formalaşması, əsasən, induktiv yolla getməlidir. Şagirdlər müəllimn rəhbərliyi ilə öyrənilən qrammatik məfhumlar üçün bir sıra tipik, konkret faktlar seçib təhlil etməlidir. Müəllim kifayət qədər inandırıcı dil faktları ayırmalı, şagirdləri müəyyən dil hadisəsini digərlərindən fərqləndirən əsas əlamətlərlə tanış etməlidir. Dərsliklərdə söz məfhumuna tərif verilmir. Bu məfhumun məzmunu açılmadan, şagirdlər onu praktik yolla mənimsəyirlər. Hələ savad təlimi dövründə şagirdlər sözün səslərdən əmələ gəlməsini və yazıda hərflərlə ifadə olunduğuru mənimsəyirlər. Lakin qrammatikanın öyrənilməsi prosesində şagirdlər tədricən sözün digər mühüm xassələri ilə (yəni onun əşya, varlıq, hadisə, hərəkət və s. bildirdiyi, müəyyən mənaya malik olduğu ilə, onun dəyişə bilməsi, müəyyən qrupa daxil olması və s. ilə) tanış olurlar. Söz haqqında məfhum yaratmaq üçün, hər şeydən əvvəl, onlar sözün iki cəhətini xarici (yəni söz tərkibi) və daxili (yəni məna) cəhətini dərk etməli, sözü ayrılıqda dilin vahidi olaraq kimi qavramağı bacarmalıdırlar. Məktəb təcrübəsində sözü dilin vahidi olaraq mənimsətmək üçün müəyyən çalışmalar aparılır. Məsələn, müəllim konteksdəki sözləri aramla, fasilələrlə deyir, şagirdlər isə onu izləyirlər. Şagirdlər kitabda yaxud yazı yazı taxtasında yazılmış cümləni sözlərə ayırırlar. Bəzən isə cümlədəki sözləri ardıcıllıqla göstərir və tələffüz edirlər. Bu zaman müəllim qruplarla iş aparır. Hər bir qrupa tapşırıq yazılmış

kartoçkalar paylanır. Müxtəlif tipli tapşırıqlardan ibarət olan kartoçkalar aşağıdakılardır:

I qrup : «Söz nədir, necə yaranır,sözün hansı mənaları var?»

II qrup : «Çoxmənalı sözlərlə omonim sözlərin fərqini göstərin»

IIIqrup: «Kitab sözünü hallandırm, yiyəlik,yönlük və təsirlik halda işlənənləri cümlədə işlədin.»

I qrup «Söz assosiasiyası» vasitəsilə «Söz» məvhumunu şaxələrə ayıraraq tapşırığı izah etmişlər.

II qrup Venn diaqramından istifadə edərək çoxmənalı sözlərlə omonim sözlərin fərqini izah etmişlər.

III qrup isə adi qaydada tapşırığı yerinə yetirmişlər.

Söz və əşya arasındakı fərqi daha aydın başa salmaq üçün müəllim dərs kitabı, roman, elmi-kütləvi və siyasi kitablar göstərir və onların hamısını biz sözlə adlandırmaq mümkün olduğunu bildirir.

Hərəkət və necəlik bildirən sözlər haqqında anlayış da bu yolla verilməlidir.

Nitq hissələri məfhumu bir neçə il ərzində tədricən mənimsənilir. I sinifdən fərqli olaraq, II sinifdə şagirdlər «nitq hissəsi» anlayışına daxil olan sözün ifadə etdiyi əşyanın adı, necəliyi, hərəkəti ilə də tanış olurlar. III sinifdə isə nitq hissələri haqqında ilk ümumi məfhum əldə edirlər. Onlar hər hansı nitq hissəsinin adını eşitməklə onun mənasını və qrammatik suallarını da öyrənirlər. Daha sonralar şagirdlər nitq hissələrinin səciyyəvi xüsusiyyətlərini (ismin hala, felin zamana və şəxsə görə dəyişməsi və s.) öyrənirlər. Beləliklə, yalnız IV sinfi bitirərkən şagirdlər nitq hissələrinin əsas əlamətləri ilə tanış olurlar. III-IV siniflərdə şagirdlər artıq hərəkət, qaçış, gəziş kimi sözlərin hərəkət ifadə etməsinə baxmayaraq, əşya olduğunu müəyyən etməyi bacarmalıdırlar. Müşahidələr göstərir ki, şagirdlər qrammatik məfhumu öyrənənədək praktik yolla bir sıra məfhumları da mənimsəyirlər. Lakin belə ümumiləşdirmələr şərti xarakterdə olur. Psixoloji tədqiqatlar göstərir ki, praktik ümumiləşdirmələr dili dərk etməyi inkişaf etdirməklə yanaşı, həm də şagirdi yanlış istiqamətə yönəldə bilər.

Bəzən şagirdlər şüurlu olmayan təsəvvürlərə əsaslanırlar. Məsələn, bir çox hallarda şagirdlər əşyanın adını bildirən sözlər sırasına yalnız cansız əşyaları daxil edirlər. Onlar belə hesab edirlər ki, əşya hərəkət etməyən, qaçmayan, hərəkət etməyəndir.III sinif şagirdləri felin zamanlarını təhlil edərkən «Bahar gəldi» cümləsindəki gəldi sözünü indiki zaman kimi təsəvvür edirlər. Buna səbəb şagirdlərin həmin dövrdə baharı müşahidə etmələridir. Şagirdlər qrammatik təhlil zamanı bəzən qohum sözləri (qənd-qənddan, bağ-bağban və s.) eyniköklü söz kimi qəbül etmədikləri halda, əksinə, səslənmə etibarı ilə bənzər, mənaca ümumi olmayan sözləri (çal-çağır, göz- gözəl) eyniköklü hesab edirlər. Ona görə də ümümiləşdirmə üçün faktları düzgün seçmək və öyrətmək lazımdır. Məsələn, sifət anlayışı onun

iki mühüm əlaməti əsasında yaranır:1) sifət nəyə deyilir ? 2) hansı suallara cavab verir? Uşaqlarda sifət haqqında düzgün anlayışın yaranması üçün təhlil edilib sonra da ümumiləşdiriləcək materiala əşyanın müxtəlif əlamətlərini (rəngini, iriliyini, hansı materialdan hazırlanmasını, dadını və s.) ifadə edən sifətlər daxil olunmalıdır. Məsələn, alma - ağ, sarı, yaşıl, qırmızı (rəngi); yumru, uzunsov, yastı (forma); böyük, kiçik -ölçüsü; turş, şirin, kəmşirin (dadı); ətirli (iyi) və s. Bibö cədvəli vasitəsilə şagirdlər müstəqil olaraq yaradıcı iş aparırlar. İlk ümumiləşdirmə zamanı şagirdlər müəyyən edirlər ki, bütün bu sözlər əşyanın əlamətini bildirir və necə? sualına cavab olur. Sonralar şagirdlər sifətin digər mühüm əlamətləri ilə də tanış olurlar.Ümumiyyətlə, qrammatik məfhumların yaranması birdən-birə deyil, uzun müddət ərzində baş verir. Şagirdlər ayrı-ayrı mühüm əlamətləri növbə ilə mənimsəyirlər.Müəllim hər bir qrammatik hadisəni onun müxtəlif əlamətlərinə görə dərk etməyi öyrənməlidir ki, biliklər sistemi yaranmasın və şagirdlər onlardan istifadə edə bilsinlər. Dildə qrammatik hadisələr bir - biri ilə bağlı olub, biri digərinin başa düşülməsinə kömək göstərir. Ona görə də qrammatik anlayışların əmələ gəlməsi uşaqlardan əvvəllər qazanılmış biliklərə istinad etməyi tələb edir. Məsələn, isimlərin hallanması haqqında məfhumun yaranması üçün ahəng qanununa istinad etmək lazım gəlir. Qrammatik məfhumların möhkəmləndirilməsi üçün hər bir yeni məfhumu əvvəllər öyrənilmiş məfhumla müqayisə etmək, tutuşdurmaq lazımdır.

## Ədəbiyyat

1. Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, 2010.
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". Bakı, 2013.
4. K.Məmmədova. İbtidai siniflərdə Azərbaycan dili dərslərində şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinin inkişafı (metodik tövsiyə). Bakı, 2013.

**К.Мамедова**

## чения в обогащение восприимчивости учеников на уроках азербайджанского языка

### Резюме

В статье рассмотрен рол интерактивных методов обучения в развитии восприимчивости учеников на уроках азербайджанского языка. Значение частей речи является широким, например, значение имени, типы значения имени, конкретные и общие имена, типы имен,

сложные имена имен существительных, существительные, изображения имен, имена предложений и так далее. Она охватывает вопросы. Это может быть более понятным для студентов через BOTA. Таким образом, ученики приобретают определенные понятия в соответствии с основами лингвистики даже в начальных классах азербайджанского языка. Большинство этих понятий обобщаются при изучении определенного языкового феномена, грамматических правил и, наконец, прохождения полного раздела, что создает понятие языковых правил и законов в процессе обучения азербайджанскому языку. В статье всесторонне изложено о методах и видах интерактивного обучения в процессе освоения определённых грамматических понятий со стороны учеников и о его значении на уроках азербайджанского языка.

**K.Mammadova**

**The main role of interactive training methods in the enlargement of cognitive activity of pupils at lessons of Azerbaijan language.**

**Summary**

The article informs the main role of interactive training methods in the enlargement of cognitive activity of pupils at lessons of Azerbaijan language. The value of the partial list is large, such as the name of the type, the name of the type and the common name, the name of the type, the names of the names, the names, the names of the image, the name of the offer, and so on. It hurts the question. This can be a bit more contagious for students by BOTA. By the way, the students will be able to understand the definition of the language in the language of the linguistics in the main classes of the Azerbaijani language.

The majority of these are defined by the study of the language phenomena, grammatical rules, and finally the full extent of the origin of the law, which in turn creates the rules of law and the law in the Azerbaijani language. Interactive training methods, its types are used by pupils for adopting better certain grammatical notions. They are applied at lessons of Azerbaijan language in the considerable form. It is involved widely in the article.

**Rəyçi: Rəhilə Əliyeva**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**